F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Səhnədən Ürəklərə: Əliabbas Qədirovun Sənət Dünyası

**Xalq artisti, dövlət mükafatı laureatı Əliabbas Qədirovun 80 illiyi münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2026**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Səhnədən Ürəklərə: Əliabbas Qədirovun Sənət Dünyası** - Xalq artisti, dövlət mükafatı laureatı Əliabbas Qədirovun 80 illiyi münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait / F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2026. – 25 s.

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026**

## Həyat və yaradıcılığı

**“Teatr mənim qibləgahım, evim, isti ocağım, önündə baş əydiyim müqəddəs məbəddir”.**

**Əliabbas Qədirov**

Yaradıcılıq imkanları romantik və realist aktyor məktəblərinin estetik göstəricilərinə, psixoloji mahiyyətinə, fəlsəfi dərinliyinə uyğun, daxilən hərarətli və ehtiraslı temperamentə, dinamik plastikaya malik aktyor idi Əliabbas Qədirov. Oynadığı rollar janr xüsusiyyətinə görə fərqli, əlvan və bədii cəhətdən bitkin təsir bağışlayıb. Aktyor təbiətində ilk baxışda “gizli” görünən, ancaq duzlu və cazibəli yumor olub. O, bu yumordan həssaslıqla, yığcam “xəsisliklə”, lakin bədii məziyyətləri cazibəli, könüloxşayan, müəyyən estetik meyar çərçivəsində peşəkar görünən bacarıqla istifadə edib.

Əliabbas Qədirov oynadığı obrazlara, ilk növbədə, elmi-nəzəri əsaslarla yanaşıb, xarakterin əsərdə kəsb etdiyi psixoloji-fəlsəfi qənaətlərin mahiyyətini müəyyənləşdirib. Səhnə surətinin dramatik kolliziyalarındakı yerini daha qabarıq bədii vasitələrlə canlandırmaq üçün “ikinci plan” estetik anlayışının əyani və təcrübi təzahürünü bütün incəliklərinə kimi tamaşaçılara çatdırmağa çalışıb. Səhnədə diqqətcil və həssas, mürəkkəb mizanlar toplusunda oynamağı xoşlayan aktyor olub. Azərbaycanın məşhur qiraət ustalarından biri kimi, onun ifasında Füzuli, Vaqif, Nəsimi, Sabir...yaradıcılığının poeziya poetik nümunələri lentə alınıb.

Əliabbas Qədirov 1946-cı il fevralın 15-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra aktyorluğa olan marağı onu Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutuna gətirmişdir. O, 1965-1969-cu illərdə institutun dram və kino aktyorluğu fakültəsində təhsil almışdır. Səhnə fəaliyyətinə institutun tədris teatrında başlayan Əliabbas Qədirov 1970-ci ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktyor truppasına qəbul edilmiş və taleyini ömrünün sonuna qədər bu sənət ocağı ilə bağlamışdır. Onun bu səhnədə yaratdığı müxtəlif obrazlar teatr sənəti tariximizə əbədi daxil olmuşdur. Aktyorluq sənətinin vurğunu olan Əliabbas Qədirov teatr aləminə qədəm qoyduğu gündən istedadlı aktyor kimi parlamış, gözəl ifa tərzi, yüksək səhnə mədəniyyəti ilə sənətsevərlərin qəlbinə yol tapmışdır. O, milli teatr sənətimizin zəngin ənənələrinə sadiq qalaraq yaratdığı bir-birindən maraqlı obrazlarla tamaşaçıların böyük rəğbətini qazanmışdır. Onun klassik və müasir Azərbaycan ədəbiyyatına, milli və dünya dramaturji irsinə müraciət etməklə səhnə həyatı verdiyi qəhrəmanlar müasirlərimizin yaddaşına həkk olunmuşdur. Təbiiliyi və inandırıcılığı ilə seçilən bu rollar aktyorun sənətin incəliklərinə dərindən bələd olduğunu nümayiş etdirmişdir. Əliabbas Qədirovun kino

sənətinin imkanlarından istifadə edərək, ekranda ustalıqla canlandırdığı rəngarəng surətlər Azərbaycan kinosunun unudulmaz səhifələrindəndir. Əliabbas Qədirov mahir sənətkar olmaqla yanaşı, həm də özünün təşkilatçılıq bacarığı ilə seçilirdi. O, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktoru və bədii rəhbəri vəzifəsində uğurla çalışaraq, Azərbaycanın parlaq teatr ənənələrinin ləyaqətlə davam və inkişaf etdirilməsi üçün qüvvəsini əsirgəməmişdir. Onun səmərəli pedaqoji fəaliyyəti nəticəsində neçə-neçə istedadlı gənc aktyorluğun sirlərinə yiyələnərək sənət aləmində tanınmışdır. Əliabbas Qədirovun milli teatr və kino mədəniyyətinin inkişafı sahəsindəki xidmətləri yüksək qiymətləndirilmişdir. O, müxtəlif illərdə dövlət mükafatlarına və fəxri adlara layiq görülmüş, müstəqil Azərbaycanın ali mükafatı olan "Şöhrət" ordeni ilə təltif edilmişdir. Görkəmli rus tənqidçisinin aktyorluq məsləyinin məramını şərh edən fikirlərini Azərbaycan teatr və kino sənətinə dəyərli töhfələr verən istedadlı aktyor Əliabbas Qədirovun bənzərsiz yaradıcılığına şamil etmək olar. Qəlbi, ruhu yaradıcılıqla dolu, daxili dünyasını, potensialını ekran və səhnə personajlarına böyük coşqu və sevgi ilə sərf edən Əliabbas müəllimin oynadığı hər bir obraza, personaja geniş zəkasından, yüksək intellektindən pay düşüb. Rollarında içdən gələn həyatilik, emosionallıq təcəssüm etdirən aktyor yaradıcılığını çox vaxt pafos, patetika adlandırırlar. Əslində isə, həyat həqiqətləri şəxsiyyətini, daxili dünyasını yaratdığı obrazlara təslim edən, qələmin məhsulu olan xəyali prototipləri daxili məninə sığdırıb xarakterləri özününküləşdirən, yüzlərlə insanı düşünməyə, onu dinləməyə vadar edən aktyor yaradıcılığında açılır. Bu isə üç-beş illik nəzəri biliyin yox, daxili sevginin, sənətə bağlılığın və ən nəhayət, aktyor kimi doğulmağın nəticəsidir. Əliabbas Qədirov məhz belə sənətkar idi. Əliabbas Gülabbas oğlu Qədirov 1946-cı il fevralın 15-də Bakıda anadan olub. Ailələrində 8 uşaq böyüyürdü. Əliabbas digər bacı-qardaşları kimi dərslərindən əla qiymət alsa da, sənət seçimində fərqli mövqe tutdu. Hələ kiçik yaşlarından ədəbiyyata, sənətə həvəs göstərirdi. Atası isə onu həkim görmək istəyirdi. Lakin ailəsinə, dostlarına daim sənətə olan sevgisindən bəhs edən, "səhnə mənim həyatımdır" deyən gənc məktəbdə teatr dərnəyinə yazılır, müxtəlif rollarda çıxış edirdi. Ailədə yaşanan narazılıqlara baxmayaraq, o, orta məktəbi bitirdikdən sonra sənədlərini Azərbaycan Dövlət Teatr İnstitutuna verir. İnstitutda görkəmli teatr rejissoru və aktyor, pedaqoq Mehdi Məmmədovun kursunda təhsil alır. 4-cü kursda Mehdi müəllim onu Akademik Dram Teatrına gətirir. Teatrda aktyor kimi fəaliyyətə başlayan gəncə xarakterik simasına, şaqraq, ifadəli səsinə, aydın tələffüzünə və qüsursuz səhnə mədəniyyətinə görə elə ilk günlərdən bir-birindən maraqlı rollar verilir. İstedadlı aktyor Nicat ("Mahnı dağlarda qaldı"), Heydər bəy ("Hacı Qara"), Cahangir ("Laçın yuvası"), Fərhad ("Bəxtsiz cavan"), Kərim bəy ("Tənha iydə ağacı"), Kamran ("Bizim qəribə taleyimiz"), Seyid Hüseyn ("Xurşudbanu Natəvan") və onlarla başqa bənzərsiz obrazlara coşqun, qaynar ifası ilə uğurlu səhnə həyatı bəxş edir.

Böyük dramaturq C.Cabbarlının "Sevil" əsərində oynadığı Balaş rolunda mənfi xarakterin peşəkar təqdimatında köləliyə, insanların bir-birinə olan biganəliyinə, mənəviyyatı yoxsul olanların idraksızlığına ikrah hissi yaradır.

Aktyorun mənəvi yüksəlişin carçısı olan personajları milli teatr tariximizin uğurlu obrazları sırasındadır. Xalq yazıçısı İ.Əfəndiyevin "Mahnı dağlarda qaldı" pyesində yaratdığı Nicat obrazı ictimai bərabərsizliyi yox etmək naminə həyatını qurban verməyə hazır olan bir qəhrəmandır. Onun ideoloji mübarizəyə qoşulma səbəbi əqidə və mənəvi azadlıq istəyidir. Bu mənada yüksək ideyaları təbliğ edən əsərlər aktyor yaradıcılığında aydın təsvir olunur, tamaşaçı və oxucu kütləsi tərəfindən təkrar sevilirdi. Geniş mütaliəsi olan Əliabbas müəllim teatr və kino fəaliyyəti ilə yanaşı, televiziya tamaşalarında oynadığı rolları da maraqlı ştrixlərlə yaddaşlara həkk edirdi. Səlis və obrazlı səhnə danışığına malik olan aktyor "Komediyalar aləminə səyahət" əyləncəli verilişinin aparıcısı kimi tamaşaçı auditoriyasının rəğbətini qazandı. Fərdi improvizələri ilə təqdim etdiyi səhnəciklərə maraqlı, səmimi müdaxilə edən aktyor tamaşaların koloritini daha da artırırdı.

Əliabbas müəllimin fərdi sənət potensialından dublyajda və kinoda müxtəlif janrlı 63 ekran əsərində istifadə olunsa da, ona yalnız 17 (bədii-sənədli) filmdə çəkilmək qismət olub. Onun kinoda debütü Xalq artisti, kinorejissor Yalçın Əfəndiyevin 1972-ci ildə çəkdiyi "Xatirələr sahili" filmindəki İmran roludur. Uşaqlığı müharibənin ağır illərinə təsadüf edən, yoxsulluğun çətin sınaqlarından çıxan, lakin buna baxmayaraq həyat yollarını doğru müəyyənləşdirən dostlardan yalnız biri nəfsinə hakim ola bilmir, xalqın əmlakına göz dikməklə mənəvi yoxsulluğunu təsdiqləyir. İmran digər iki dostu kimi doğma qardaşı qədər sevdiyi Səlimin halına acıyır. Ancaq hər bir insanın əməli həyatının əksi olduğundan o da digərləri kimi baş verən hadisələrin sadəcə tamaşaçısıdır. O, Səlimin hərəkətini müharibədə onların azadlığı naminə həyatlarını qurban vermiş atalarına xəyanət adlandırır. Aktyorun obraza dəqiq münasibəti yalnız Səlimin yox, cəmiyyətdəki mənfi ünsürlərin var-dövlətə həris həyatına qınayıcı bir baxışdır.

Onun səhnə və ekran personajları müxtəlif dövrlərin qəhrəmanı olsa da, səmimi və real təqdimatına, emosional təsirinə görə bu gün də müasir və aktualdır. Kinoda ilk böyük rolu rejissor G.Əzimzadənin 1974-cü ildə diplom işi kimi çəkdiyi "Nəğmə dərsi" novellasındakı ("Ömrün səhifələri" kinoalmanaxı) ata obrazıdır. Filmdə ailədə bəxti gətirməyən, oğlu ilə gizli görüşən atanın narahatlığından, oğlu ilə münasibətindən danışılır. Dağılan ailələrdə ən çox əziyyət çəkən uşaqlardır - film bu fikri vurğulayır. Ekran əsərində aktyor potensialını təsdiqləyəcək geniş imkan olmasa da, Ə.Qədirov filmin mövzusunu dinamik ifa, emosional təsirlə reallaşdırıb.

Onun milli kinomuzda yaratdığı Mənsur ("Evin kişisi", 1978), Cəlil ("Qızıl uçurum", 1980), Fəzl ("Babək", 1979), Fərid ("Qocalar, qocalar...", 1982), Sultanov ("İşarəni dənizdən gözləyin", 1986) və başqa obrazları orijinal ifada özünü

doğrultmuş, fərqli mizanlarla cilalanmış, real personajlardır. İstedadlı aktyor "Sevinc buxtası" filmində yaratdığı (1977) Nazim roluna görə 1978-ci ildə Respublika Dövlət mükafatına layiq görülüb. Filmlərə böyük fasilələrlə çəkilən aktyor dublyaja tez-tez dəvət alardı. "Mozalan" və sənədli filmlərin məzmununu obrazlı səsi ilə açar, filmlərin məntiqi mənasını orijinal ifalar qədər dolğun və ifadəli çatdırardı.
Sənətdə qazandığı nailiyyətlərə görə 1982-ci ildə respublikanın "Əməkdar artisti", 1989-cu ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülən Ə.Qədirov 2006-cı ildə "Şöhrət" ordeni ilə təltif olunub.

Əliabbas müəllim vaxtilə peşə sirrinə yiyələndiyi sənət məbədində pedaqoji fəaliyyət göstərib, bilik və bacarığını gənclərə böyük həvəslə öyrədib. Məslək sirrini yüzlərlə tələbəyə açan təcrübəli pedaqoq 2000-ci ildən Mədəniyyət və İncəsənət Universitetinin professoru idi. Aktyorluqdan Akademik Milli Dram Teatrının bədii rəhbəri, direktoru vəzifəsinə qədər yüksəlmiş Ə.Qədirovu həmkarları təvazökar bir insan kimi xatırlayırlar. Həyatda və sənətdə əldə etdiyi nailiyyətlər onu dəyişdirməmişdi. Onun ən böyük istəyi, amalı səhnəyə yadlaşmamaq, sənətdə unudulmamaq idi. Buna görə də o, çox mütaliə edər, məşqlərə və çəkilişlərə böyük həvəslə gedərdi.

Əliabbas müəllimin kinoda sonuncu rolu "Küçələrə su səpmişəm" (2004) filmində oynadığı Çərkəz dayı obrazıdır. Rejissor N.Feyzullayev filmə uğur gətirən aktyor ansamblı içərisində Əliabbas müəllimin olmasını xüsusi olaraq vurğulayır: "Mən bu filmi çəkəndə Əliabbas müəllim teatrda rəhbər vəzifədə çalışırdı. Sınaq çəkilişlərindən çox aktyorlar keçsə də, sonda Əliabbas Qədirovu çəkmək qərarına gəldim. Rolu həvəslə oynayır, məharətlə improvizə edir, obrazı olduqca səmimi və dolğun yaradırdı. O, özü elə əsl Çərkəz dayı idi". Bənzərsiz ifası ilə Azərbaycan teatr və kino sənətinin simasına çevrilmiş sənətkar həm də qayğıkeş ata idi.

Kiçik qızı Gülçin Kazımi atasını belə xatırlayır: "Evin sonbeşiyi olduğum üçün qardaşım və bacımın məni incitməsinə atam heç vaxt imkan verməzdi. Məni özü ilə birlikdə həmişə qastrol səfərlərinə aparardı. İnsanların ona olan münasibətini yaxşı xatırlayıram. Hamı onunla görüşür, söhbət edirdi. Ona qarşı böyük xalq sevgisi vardı. O, işləməkdən yorulmazdı. Hərdən öz-özümə düşünürəm ki, o, televiziya, teatr və kinoda bu qədər işi necə çatdıra bilib. İşini bəhanə edib bizdən uzaqlaşmazdı. Anam onun xalası qızı idi. Onu sevib almışdı. Atamgil böyük külfət olduğundan valideynləri yeganə övladlarını atama vermək üçün tərəddüd ediblər.

"Səni almaq üçün çox çalışdım "Gülbahar",- deyə, atam o illəri xatırlayırdı. Anam rəhmətə gedəndən sonra "Mən Gülbaharsız çox yaşamaram",- deyirdi.
Atam anamın vəfatından 6 ay sonra, 2006-cı il martın 8-də dünyasını dəyişdi. Biz həmişə onu qürur hissi ilə xatırlayırıq. O, mükəmməl insan, əsl ata idi".

Onun həyatına, aktyor sənətinə gətirib çıxaran ömür yoluna nəzər salanda, keçdiyi maneələri, sıxıntıları oxuyanda düşünürsən, insanda nə qədər böyük sevgi, nə qədər

böyük həvəs olmalıdır ki, hər şeyin üstündən xətt çəkib, gizlin-gizlin, oğrun-oğrun da olsa özünü, gələcəyini gördüyü sənətin arxasınca getsin. Bəli, o, özünü yalnız aktyor kimi görürdü. Əlindəki heç bir imkan, kənardan edilən müdaxilələr, verilən məsləhətlər, qoyulan sərt qadağalar onu yolundan döndərməyə kifayət edə bilməzdi. Etmir də... Çünki onun aktyorluq sənətinə, səhnəyə sevgisi bunların hamısından güclü, hamısından böyük idi. Və bu sevgi qarşısında hər kəs təslim olur... 1946-cı ilin 13 fevralı çoxları üçün adi, əslən xızılı olan, Bakıda dəmiryolçu işləyən Gülabbas kişinin ailəsi üçün isə əlamətdar gün idi. Həmin gün ailəyə yeni üzv, yeni nəfəs gəlmişdi. Səkkizuşaqlı ailənin ikinci övladı kimi dünyaya gələn, adını Əliabbas qoyduqları körpənin gələcəkdə nəinki ailəsinin, bütünlükdə Azərbaycan xalqının, Azərbaycan mədəniyyətinin tarixində önəmli şəxsiyyət olacağından isə hələ heç kimin xəbəri yox idi.

**Yubiley tədbirlərinin keçirilməsi**

*Əliabbas Qədirov bütün ömrünü Azərbaycan teatr və kino sənətinə həsr etmiş, bir-birindən maraqlı rollara öz imzasını həkk etmiş və əsl sənətkar ömrü yaşamış aktyor idi.*

Onun həyatına, aktyor sənətinə gətirib çıxaran ömür yoluna nəzər salanda, keçdiyi maneələri, sıxıntıları oxuyanda düşünürsən, insanda nə qədər böyük sevgi, nə qədər böyük həvəs olmalıdır ki, hər şeyin üstündən xətt çəkib, gizlin-gizlin, oğrun-oğrun da olsa özünü, gələcəyini gördüyü sənətin arxasınca getsin. Bəli, o, özünü yalnız aktyor kimi görürdü. Əlindəki heç bir imkan, kənardan edilən müdaxilələr, verilən məsləhətlər, qoyulan sərt qadağalar onu yolundan döndərməyə kifayət edə bilməzdi. Etmir də... Çünki onun aktyorluq sənətinə, səhnəyə sevgisi bunların hamısından güclü, hamısından böyük idi. Və bu sevgi qarşısında hər kəs təslim olur... 1946-cı ilin 13 fevralı çoxları üçün adi, əslən xızılı olan, Bakıda dəmiryolçu işləyən Gülabbas kişinin ailəsi üçün isə əlamətdar gün idi. Həmin gün ailəyə yeni üzv, yeni nəfəs gəlmişdi. Səkkizuşaqlı ailənin ikinci övladı kimi dünyaya gələn, adını Əliabbas qoyduqları körpənin gələcəkdə nəinki ailəsinin, bütünlükdə Azrbaycan xalqının, Azərbaycan mədəniyyətinin tarixində önəmli şəxsiyyət olacağından isə hələ heç kimin xəbəri yox idi.

Bəli, bu gün haqqında söz açdığımız, Azərbaycan teatr və kino sənətinin inkişafında mühüm xidmətləri olan, bənzərsiz rollarına, məxməri səs tembrinə görə milyonların sevgisini qazanan görkəmli sənətkar, Xalq artisti Əliabbas Qədirovun anadan olmasından 80 il ötür.

Görkəmli aktyor Əliabbas Qədirovun 80 illik yubileyi ilə əlaqədar olaraq respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, kitabxana, lisey, gimnaziyalarda tədbirlərin keçirilməsinə start verilmişdir. Beləki, F.Köçərli adına Respublika Uşaq Kitabxanası olaraq, yubileylə bağlı tədbirlər planı hazırlamışıq. İlk

öncə kitabxananın oxu zalında foto sərgi və kitab sərgisi təşkil olunur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "Əliabbas Qədirov-80", "Yaxşılar unudulmur", "Teatr həyatımdır-Əliabbas Qədirov", "Sənətkarın şöhrəti və unudulmazlığı" və s. Bu sərginin hazırlanmasında məqsədimiz görkəmli aktyor Əliabbas Qədirovun yaradıcılığı ilə geniş şəkildə tanış olmaq, gənc nəslə təbliğ etmək və sevdirməkdən ibarətdir. Sərginin nümunəsini sizlər üçün təqdim edirik:

1.Başlıq-"Əliabbas Qədirov-80"
2. Foto albom
3.Kitabların nümayişi
5.Dövrü mətbuatda çap olunun qəzət və məqalələrin kartotekası

Foto albom


















**Görkəmli şəxsiyyətlərin Əliabbas Qədirov haqqında söylədikləri**

Mənim "Mesenat" pyesimdə Əliabbas Qədirov Hacı Zeynalabdin Tağıyev obrazını böyük məhəbbətlə, zövqlə oynayırdı. Onun Bakı ləhcəsində gözəl vurğu ilə danışması (əsərdə bu, olmasa da) ayrı bir aləm idi. Hətta adama elə gəlirdi ki, səhnədəki elə Tağıyevin özüdür. Təəssüf ki, Əliabbas Qədirov sevgi ilə oynadığı bu rolda cəmi 10 dəfə səhnəyə çıxa bildi.

Əməkdar İncəsənət xadimi, professor
Əli Əmirli

Əliabbas Qədirov qrim etdikdə zahirən də Hacıya çox bənzəyirdi. Üstəlik, o, istedadlı aktyor idi, canı ağrısa da, tez yorulsa da, var gücünü toplayıb rolu üzərində çalışırdı, premyeranı səbirsizliklə gözləyirdi. Sanki hiss edirdi ki, "Mesenat" onun son tamaşası olacaq və o bütün enerjisini, sənət sevgisini və istedadını bu rola vermək istəyirdi. Əliabbas müəllimin xəstəliyi gücləndiyindən o, səhv etmirəmsə, cəmi beş tamaşada çıxış etdi.

Əməkdar incəsənət xadimi
Bəhram Osmanov

"Evin sonbeşiyi olduğum üçün qardaşım və bacımın məni incitməsinə atam heç vaxt imkan verməzdi. Məni özü ilə birlikdə həmişə qastrol səfərlərinə aparardı. İnsanların ona olan münasibətini yaxşı xatırlayıram. Hamı onunla görüşür, söhbət edirdi. Ona qarşı böyük xalq sevgisi vardı.

Gülçin Kazımi
(Qızı)

"Onun söhbətlərindən gəldiyim ilk nəticə bu oldu ki, atam elə kiçik yaşlarından inadkar, sözübütöv, qətiyyətli olub. Heç vaxt rahat həyat axtarmayıb. Zəhmətdən çəkinməyib.

İlham Qədirov
(Oğlu)

"Mən bu filmi çəkəndə Əliabbas müəllim teatrda rəhbər vəzifədə çalışırdı. Sınaq çəkilişlərindən çox aktyorlar keçsə də, sonda Əliabbas Qədirovu çəkmək qərarına gəldim. Rolu həvəslə oynayır, məharətlə improvizə edir, obrazı olduqca səmimi və dolğun yaradırdı. O, özü elə əsl Çərkəz dayı idi".

N.Feyzullayev
Rejissor

Aktyorluqdan Akademik Milli Dram Teatrının bədii rəhbəri, direktoru vəzifəsinə qədər yüksəlmiş Ə.Qədirovu həmkarları təvazökar bir insan kimi xatırlayırlar. Həyatda və sənətdə əldə etdiyi nailiyyətlər onu dəyişdirməmişdi. Onun ən böyük istəyi, amalı səhnəyə yadlaşmamaq, sənətdə unudulmamaq idi. Buna görə də o, çox mütaliə edər, məşqlərə və çəkilişlərə böyük həvəslə gedərdi.

Şəhla Bürcəliyeva
kinoşünas




Xalq artisti, görkəmli aktyor Əliabbas Qədirovun 80 illiyi yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də kitab müzakirəsidir. Kitab müzakirəsinə aktyorun sənət yoldaşları, teatrşünaslar, ədəbiyyatşünaslar, tələbə və şagirdlər dəvət olunur. Müzakirəsinə yığışdığımız kitab Azərbaycanın əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, teatrşünas İlham Rəhimlinin 2013-cü ildə “Aspoliqraf” nəşriyyatı tərəfindən “Səhnəyə qovuşan cığırlar” adlı kitabıdır. İlham Rəhimlinin “Səhnəyə qovuşan cığırlar” adlı kitabı Akademik Milli Dram Teatrının, həmçinin bu sənət ocağının əsasını təşkil edən müxtəlif teatr truppalarının qüdrətli sənətkarları, görkəmli rejissorları, məşhur aktyorları və səhnə aşıqi olan sıravi fədakarlar haqqında portret-oçerklər toplusudur. Kitabda səhnə və ekran ustası Əliabbas Qədirovun teatr və kino yaradıcılığındakı uğurlarından söz açılır, onun keçdiyi həyat yolundan, ifa etdiyi rollarından bəhs olunur. Həmçinin aktyorun baş və əsas rollarda çıxış etdiyi tamaşalar misal göstərilir: Vaqif (Vaqif, Səməd Vurğun), Balaş (“Sevil”, Cəfər Cabbarlı), Bəhram (“Fitnə”, Abdulla Şaiq), Məğrur (“Əks-səda”, Nəbi Xəzri), Daşqın (“Yollara iz düşür”, İslam Səfərli), İbrahim xan, Kamran, Nicat, Həbib (“Hökmdar və qızı”, “Bizim qəribə taleyimiz”, “Mahnı dağlarda qaldı” və “Büllur sarayda”, İlyas Əfəndiyev), Şeyx Nəsrulla (“Ölülər”, Cəlil Məmmədquluzadə), Qara Xaqan, Rəşad (“Özümüzü kəsən qılınc” və “Kimdir haqlı?”Bəxtiyr Vahabzadə), Tərlan (“Sənsiz”, Şıxəli Qurbanov), Toral (“Qarabağ əfsanəsi”, Qeybulla Rəsulov), Fateh (“Yol ayrıcında”, İslam Səfərli), Qazan xan, Mirzə Şəfi (“Torpağa sancılan qılınc” və “Mənsiz dünya”, Nəbi Xəzri), Qulumov (Ümüdriklər”, Aleksndr Ostrovski) və s. Kitabda həmçinin aktyorun Azərbaycan Dövlət Televiziyasında çoxlu tamaşalarda oynadığı, uzun illər əvvəlcə gənclər üçün “Məşəl”, sonralar əyləncə xarakterli “Komediyalar aləminə səyahət” verlişlərinin aparıcısı olduğu qeyd olunur. Həmçinin qeyd olunur ki, oynadığı tamaşaların bir qismi televiziyanın Qızıl fonduna daxıldir. Onlardan Süleyman Sani Axundovun “Laçın yuvası” (Cahangir), Mirzı Fətəli Axundzadənin “Hacı Qara” (Heydər bəy), Əbdürrəhim bəy Haqverdiyevin “Bəxtsiz cavan” (Fərhad), Mar Baycıyevin “Duel”

(İsgəndər), Dazortsevin “Qəbula gələn sonuncu adam” (Kişi) əsərlərinin teletamaşasında Əliabbas Qədirovun yaradıcılığı daha parlaq şəkildə təcəssümünü tapıb. Əliabbas Qədirov bütün ömrünü Azərbaycan teatr və kino sənətinə həsr etmiş, onlarla bir-birindən maraqlı rollara öz imzasını həkk etmiş və əsl sənətkar ömrü yaşamış aktyor idi. Aktyorun həyat və yardıcılığı ilə yaxından tanış olmaq üçün F.Köçərli adına Respublika Uşaq Kitabxanasında oxucularla keçirilən söhbətin keçirilməsi daha məqsədəuyğundur. Kitabxananın oxu zalında keçirilən tədbirə bir çox ziyalı qonaqlar, məktəb şagirdləri, tələbələr dəvət olunur. Təşkil olunan tədbiri kitabxanaçı giriş sözü ilə belə başlayır:

Azərbaycanın Xalq artisti Əliabbas Qədirov 1946-cı il fevral 13-də Bakıda dünyaya gəlib. O, 1965-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə qəbul edilib. Sənət müəllimi, ixtisas kurs rəhbəri Xalq artisti, professor Mehdi Məmmədov, səhnə danışığı müəllimi Əməkdar artist, qiraət ustası Müxlis Cənizadə olub. Tələbəlik illərində institutun tədris teatrının ştatlı aktyoru kimi burada Cəfər Cabbarlının “Aydın”, Hüseyn Cavidin “Azər”, Afanasi Salinskinin “Təbilçi qız” tamaşalarında maraqlı rollar yaradıb. Elə buna görə də Əliabbas Qədirov son kursda oxuyanda Mehdi Məmmədov onu Azərbaycan Milli Dram Teatrında quruluş verdiyi Hüseyn Cavidin “Xəyyam” faciəsində Yusif roluna dəvət edib. O, ilk addımından teatr ictimaiyyətinin nəzər diqqətində olub.

Əliabbas Qədirov 1970-ci ildən ömrünün sonunadək Milli Dram Teatrında çalışıb. Onun “Xəyyam”, “Aydın”, “Sevil”, “Oqtay Eloğlu”, “Hacı Qara”, “Xırs quldurbasan”, “Vaqif”, “Mahnı dağlarda qaldı”, “Sevgililərin cəhənnəmdə vüsalı”, “Tənha iydə ağacı”, “Torpağa sancılan qılınc” və başqa səhnə əsərlərində böyük ustalıqla yaratdığı obrazlar milli teatrımızın parlaq səhifələrini təşkil edir. Aktyor 2001-ci ildə teatrın bədii rəhbəri və direktoru vəzifəsində çalışıb.

O, daxilən hərarətli və ehtiraslı temperamentə, dinamik plastikaya malik aktyor idi. Oynadığı rollar janr xüsusiyyətlərinə görə fərqli, əlvan və bədii cəhətdən bitkin təsir



bağışlayırdı. Onun aktyor təbiətində ilk baxışda "gizli" görünən, ancaq duzlu və cazibəli yumor vardı. O, bu yumordan həssaslıqla, yığcam "xəsisliklə", lakin bədii məziyyətləri cazibəli, könüloxşayan, müəyyən estetik meyar çərçivəsində peşəkar görünən bacarıqla istifadə edirdi. Xalq artisti oynadığı obrazlara ilk növbədə elmi-nəzəri əsaslarla yanaşır, xarakterin əsərdə kəsb etdiyi psixoloji-fəlsəfi qənaətlərin mahiyyətini müəyyənləşdirərdi. Səhnədə diqqətcil və həssas olardı, mürəkkəb mizanlar toplusunda oynamağı xoşlayan aktyor idi.

Ə.Qədirov “Azərbaycanfilm” kinostudiyasının istehsal etdiyi 62 bədii və tammetrajlı filmlərdə biri- birindən maraqlı personajlar yaradıb. "Sevinc buxtası" filmində oynadığı Nazim roluna görə Dövlət mükafatına layiq görülüb.

Televiziyada "Komediyalar aləminə səyahət" verilişinin ilk aparıcısı olan Əliabbas Qədirov uzun illər pedaqoji fəaliyyətlə də məşğul olub, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dərs deyib. Aktyor 2006-cı il martın 8-də 60 yaşında leykemiya xəstəliyindən dünyasını dəyişib.




Milli teatr və kino sənətinin tanınmış nümayəndəsi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, dövlət mükafatı laureatı, respublikanın xalq artisti Əliabbas Qulu oğlu Qədirovun 80 illik yubileyi ilə əlaqədar keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbir iki hissədən ibarət olur. Birinci hissəsi çıxış və məruzələrlə başlayan tədbirin, ikinci hissəsi aktyorun rol aldığı tamaşalarla davam edir. Tədbirin geniş və maraqlı keçməsi üçün kitabxanaçı bir çox sənət adamlarını, tələbə və şagirdləri tədbirə dəvət edir. Keçirilən tədbirə müxtəlif başlıqlar vermək olar. Məsələn: **“Əliabbas Qədirov-80”.** Tədbirin ssenarisini sizlər üçün təqdim edirik. Səhnədən Əliabbas Qədirovun portreti asılır.

Azərbaycan teatr və kino sənətinin inkişafında mühüm xidmətləri olan, bənzərsiz rollarına, məxməri səs tembrinə görə milyonların sevgisini qazanan görkəmli sənətkar, Xalq artisti Əliabbas Qədirovun anadan olmasından 80 il ötür. Aktyorun tükənməz sənət eşqi ona həvalə olunan rolları peşəkarlıqla canlandırmasına, səsləndirməsinə səbəb olub.Yaradıcılıq imkanları romantik və realist aktyor məktəblərinin estetik göstəricilərinə, psixoloji mahiyyətinə, fəlsəfi dərinliyinə uyğundur. Daxilən hərarətli və ehtiraslı temperamentə, dinamik plastikaya malik aktyor idi. Oynadığı rollar janr xüsusiyyətlərinə görə fərqli, əlvan və bədii cəhətdən bitkin təsir bağışlayırdı. O, bu yumordan həssaslıqla, yığcam “xəsisliklə”, lakin bədii məziyyətləri cazibəli, könüloxşayan, müəyyən estetik meyar çərçivəsində peşəkar görünən bacarıqla istifadə edərdi. Əliabbas Qədirov oynadığı obrazlara ilk növbədə elmi-nəzəri əsaslarla yanaşırdı, xarakterin əsərdə kəsb etdiyi psixoloji-fəlsəfi qənaətlərin mahiyyətini müəyyənləşdirərdi. Səhnədə diqqətcil və həssas olardı. Azərbaycanın məşhur qiraət ustalarından biridir, onun ifasında Füzuli, Vaqif, Nəsimi, Sabir və s. kimi dahilərin poetik nümunələri lentə alınıb. Bakıdakı 31, 176, 43, 36, 105 saylı orta məktəblərdə təhsil alıb. On birinci sinfi 105 saylı məktəbdə bitirib. Səhnə sənətinə səkkizinci sinifdən başlayaraq maraq göstərib. Dəmiryolçular klubunda Xalq artisti Ağadadaş Qurbanovun rəhbərlik etdiyi dram kollektivinin üzvü

olub. Romantik, monumental tamaşalarda rolları oynamaq vərdişlərinin ibtidai əsaslarını həmin dram dərnəyində öyrənib. Elə aktyor olmağı da burada qətiləşdirib. O, 1965-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Sənət müəllimi, ixtisas kurs rəhbəri Xalq artisti, professor Mehdi Məmmədov, səhnə danışığı müəllimi Əməkdar artist, qiraət ustası Müxlis Cənizadə olub. Tələbəlik illərində institutun tədris teatrının ştatlı aktyoru kimi burada Cəfər Cabbarlının "Aydın" (Surxay), Hüseyn Cavidin "Azər", Afanasi Salinskinin "Təbilçi qız" (Fyodr) əsərlərinin tamaşalarında maraqlı rollar oynayıb. Elə buna görə də Əliabbas Qədirov son kursda oxuyanda Mehdi Məmmədov onu Akademik teatrda quruluş verdiyi Hüseyn Cavidin "Xəyyam" faciəsində Yusif roluna dəvət edib. Ancaq tamaşanın premyerası uzanıb və 12 mart 1970-ci ildə göstərilib. Elə bu səhnədə ilk addımından teatr ictimaiyyətinin nəzər diqqətində olub. O, 1970-ci il aprel ayının 6-dan Milli Dram Teatrının aktyoru olub. Məşhur aktyor 26 dekabr 2001-ci ildə teatrın bədii rəhbəri və direktoru təyin edilib. Aktyor Azərbaycan Dövlət Televiziyasında çoxlu tamaşalarda oynamış, uzun illər əvvəlcə gənclər üçün "Məşəl", sonralar əyləncə xarakterli "Komediyalar aləminə səyahət" verilişlərinin aparıcısı olub. Onun oynadığı tamaşaların bir qismi televiziyanın "Oızıl fond"una daxildir. Onlardan Süleyman Sani Axundovun "Laçın yuvası" (Cahangir), Məmməd Muradan "Təkan" (Dilqəm), İlyas Əfəndiyevin "Atayevlər ailəsində" (Cahangir), Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (Heydər bəy), Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" (Fərhad), Mar Bayciyevin "Duel" (İsgəndər), Dazortsevin "Qəbula gələn sonuncu adam" (Kişi) əsərlərinin teletamaşasında Əliabbas Qədirovun yaradıcılığı daha parlaq şəkildə təcəssüm tapıb. Əliabbas Qədirov teatrla yanaşı, kino aktyoru kimi də məşhurdur və böyük uğurlar qazanıb. Hətta o, məhz kinorejissor Eldar Quliyevin çəkdiyi "Sevinc buxtası" iki seriyalı bədii filmindəki Nazim roluna görə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülüb. Aktyor bundan əlavə "Azərbaycanfilm"də "Xatirələr sahilində" (İmran), "Nəğmə dərsi" (Ata), "Nə yaxşı ki, Səməd Vurğun var" (Vaqif), "Bizim evin kişisi" (Mansur), "Qızıl uçurum"(Cəlil), "Qocalar" (Fəriz), "Babək" (Fəzl), "Dənizdən işarə" (Sultanov), "Sevinc buxtası" (Nazim) kimi kinolentlərinə çəkilib. Vaxtilə, rejissor Hüseyn Seyidzadənin çəkdiyi eyniadlı filmdə Qatır Məmməd rolunu məharətlə ifa edib. Lakin Moskva "millətçi" ruhuna görə o filmin ekrana çıxmasına icazə verməyib. Əliabbas Qədirov sənət üçün doğulmuşdu. Onun sənət və həyat missiyası cəmiyyəti maarifləndirmək, tamaşaçını ədəbi materialın reallığına inandırmaq, eləcə də kinokameranın qarşısında hər hansı bir həyat hekayəsinin sərbəst şərhini vermək, çoxşaxəli yaradıcılığı fonunda insanlara doğru həyat istiqaməti vermək idi. Oxucular səhnəyə daxil olur. "Sevil" pyesində Balaşın son ariyasını səsləndirirlər.

Gör nə günlərə qaldın
Öz cəzandır, çək, Balaş
Hamının üzü döndü
Axır qaldın tək, Balaş

İndi neyləyim mən?
Ah, Sevil görən hardadır?
O bu evdən gedər
Görən nə haldadır?

Gör nə günlərə qaldın
Öz cəzandır, çək, Balaş
Hamının üzü döndü
Axır qaldın tək, Balaş

Vermərəm könlümü bir dilbərə bundan sonra
Olmaram mail o siminbərə bundan sonra

Bax, dilbər, bərbad etdin
Həyatımı, həyatımı
Neçin uydun? Düçar oldun bu afətə?
Özüm öz könlümü saldım zillətə
Saldım öz ömrümü bu fəlakətə

Aldandım dilbərə, uydum dilbərə
Saldım öz ömrümü bu fəlakətə
Bu fəlakətə...
Neçin gəldin?
Düçar oldun bu afətə?
Neçin gəldin?
Düçar oldun bu afətə?
Gülüş doğru deyir, məhv oldun, Balaş
Hamı atdı səni, yıxıldın, Balaş
Uydum o dilbərə, uydum afətə
Saldım öz ömrümü bu fəlakətə

Ah, nələr çəkmədi bəlalı başım
İndi sellər kimi axır göz yaşım
Axır göz yaşım...

Bu açan güllər, ötən bülbüllər
Yar olmaz könlümə
Batmışam min qəmə

Bu aləm gülür mənə

Bu açan güllər, ötən bülbüllər
Yar olmaz könlümə
Batmışam min qəmə
Bu aləm gülür mənə

Lənət o bağçalara, bu bahara
Bunlar hara, mən hara?

Artıq məhv oldu həyatım mənim
Söndü taleyim, bəxtim mənim
Sənsən son ümidim, inan, Sevil
Söylə, hardasan, hardasan, Sevil?
Hardasan, Sevil?
Hardasan, Sevil?
Gəl, gəl, gəl, Sevil
Sevil...
Daha sonra Dilbərin ariyası səslənir

Dilbər, o gözlərin xəstəyə dərman,
Bahar ətri gəlir dodaqlarından.

Ey nazənin, ey dilbər.
Sən incə mələksən,
Ey nazənin, ey dilbər.
Bütün dünyada təksən.

Gəl. yandım aman, qaşları kaman,
Güllər ətrin alır yanaqlarından.
Ey gözəllər gözəli, sən incə mələksən,
Ey nazənin, ey dilbər.

Biitün dünyada təksən.
Aşiqinəm mən sənin,
Rəhm eylə. Dilbər xanım,
Ayımsan, ulduzumsan,
Sənə qurban bu canım.

Ə.Qədirov Akademik Teatrın səhnəsində əllidən artıq müxtəlif xarakterli, qiyafəli, qrimli obraz yaratdı. Onların sırasında klassik mövzuda olanlar da var idi, müasirləri də. Müntəzəm məşqlərə gedər, tələbkar, ayrı-ayrı dünyagörüşlü rejissorları dinləyər, onların verdikləri mizanları yadda saxlamağa çalışardı. Bilirdi ki, hər rolu araya-ərsəyə gətirmək böyük zəhmət tələb edir. O da şirin yuxusuna haram qatar, oynayacağı rolun hər sözünün mənasını, məntiqini dərindən mənimsəyərdi. Və beləliklə, yazıçı-dramaturq Sabit Rəhmanın “Küləklər” pyesindəki Xosrov rolu Əliabbas Qədirovu tez bir zamanda populyarlaşdırdı. Səhnədə ilk baxışda sadə görünən bu obraz əslində mürəkkəb xarakterə, tünd xasiyyətə malik idi. Həmin səhnə əsəri haqqında teatrşünas Cəfər Cəfərov geniş məqalə dərc etdirmişdi. Müəllif xüsusi vurğulamışdı ki, Ə. Qədirovun oynadığı Xosrov rolu fərd kimi yox, tamaşanın mahiyyətinin, mənasının açılmasına xidmət edən başlıca amil təsirində baxılır və yadda qalır.
1981-ci ildə "Azərbaycanfilm" kinostudiyası "Qızıl uçurum" filmini istehsalata buraxdı. Yazıçı İbrahim bəy Musabəyovun "Neft və milyonlar səltənətində" povestinin motivləri əsasında çəkilmiş film XIX əsrin sonunda Bakının "qızıl əsri" dövründə pulun hakim olduğu cəmiyyətin iç üzü, eybəcərlikləri, bu cəmiyyətin insanların həyatına göstərdiyi təsir, onun nümayəndələrinin əxlaq və mənəviyyatındakı ziddiyyətlər öz əksini tapmışdır.

"Neft və milyonlar səltənətində" filmini tam mənada ictimai dram adlandırmaq olmaz. Filmdə tamaşaçını, inqilabdan əvvəlki Bakı neft mədənlərində işləyən fəhlələrin real həyatından uzaqlaşdıran melodram ünsürləri daha çoxdur. Lakin filmin çəkilişinə pul buraxmış və ekranda insanın necə ağlagəlməz yollarla varlana biləcəyini görmək istəyən sahibkarların arzusu xilafına olaraq, "Neft və milyonlar səltənətində" filmində Azərbaycan torpağındakı sərvətlərin vəhşicəsinə talan edildiyi, dağıldığı, hakim sinfin vəhşi ehtirası, onların azğınlığı əks olunub. Xüsusilə görkəmli aktyor Hüseyn Ərəblinskinin məharətlə oynayaraq, real cizgilərlə yaratdığı Lütfəli bəy obrazı göstərir ki, istismarçılar mütləq ölümə məhkumdurlar. "Neft və milyonlar səltənətində" adlı bu ilk quruluş bir sıra qüsurlarına baxmayaraq Azərbaycanda milli kino incəsənətinin başlanğıcı kimi çox qiymətli idi. İllər keçdikdən sonra "Neft və milyonlar səltənətində" əsərinə yenidən müraciət etməyə ehtiyac hiss olunmağa başladı. Belə bir vaxtda Rejissor Fikrət Əliyev ikinci dəfə çəkiləcək filmin quruluşunu öz öhdəsinə götürür.

Fikrət Əliyev: Filmin ikinci quruluşu fərqli olmalı idi.

İkinci quruluşda "Qızıl uçurum" adlandırılan filmin yaradıcı heyəti müəyyənləşdirdikdən sonra çəkiliş üçün nəzərdə tutulan məkanlar seçilir. Filmin çəkilişi Bakıda və Bakı ətrafında aparılır.

Fikrət Əliyev deyirdi ki, əsas çəkilişlər Bakıda lentə alınsa da, filmdəki Avrora görüntülərini Riqada çəkmişik: “Bu həmin epizodlardır ki, Cəlil varlanaraq Cəlil ağa olmuş və ailəsini tərk edərək Avroraya üz tutub.

Riqada aparılan çəkiliş o dərəcədə təbii alındı nəticədə tamaşaçı filmi seyr etdiyi zaman sanki Avrora həyatının canlı səhifələrini görürdü. Bu inandırıcılığı yaratmaq üçün əlimizdən gələni əsirgəmirdik. Filmin çəkilişi üçün seçilmiş yaradıcı heyət yaradıcı iş baxımından çox nümunəvi şəkildə fəaliyyət göstərirdi. Yəni, biz başa düşür və qəbul edirdik ki, çəkəcəyimiz film milyonların baxışına təqdim ediləcək. Bunun üçün isə film əsl sənət nümunələrinə cavab verəcək şəkildə lentə alınmalı idi".

Yaradıcı heyət filmi hər baxımdan 1916-cı ildə çəkilmiş "Neft və milyonlar səltənətində" filmindən fərqləndirməyə çalışırdı. Dövr öz işini gördüyü kimi, aktyor dəst-xətti də fərqli olmalı idi.

F.Əliyev deyirdi ki, dövr baxımından götürdükdə 1916-cı illə, 1981-ci il arasında nə az, nə də çox, düz 65 il fərq var: "65 il ərzində çox dəyişikliklər olmuşdu. Biz bütün dəyişiklikləri nəzərə alaraq müasir dövrə cavab verən bir film çəkməyi qarşımıza məqsəd qoymuşduq". Sınaq çəkilişlərinə onlarla aktyor dəvət edən rejissor heç birinin adlarını açıqlamasa da, sadəcə onu bildirmişdi ki, kinonun qaydası belədir ki, hər hansı bir filmin yaranması üçün baş qəhrəman obrazlarına onlarla aktyor dəvət olunur: "Fotosınaq çəkilişlərindən sonra kinosınağında yoxlanan aktyorların hər hansı biri yoxlandığı obraza uyğun gəlirsə, o da təsdiq olunur. Bu baxımdan "Qızıl uçurum" filminin də sınaq çəkilişlərinə bir çox aktyorları dəvət etmişdik. Zənnimcə, hazırda onların adlarını açıqlamağın heç bir mənası yoxdur. Əsas odur ki, təsdiq olunan aktyorlar öz rollarının öhdəsindən məharətlə gələ bilmişlər". Filmin ssenarisinə gəlincə, ssenari müəllifinin bədii dildə, bədii rənglərlə işlənən ifadə vasitələrini rejissor canlı bir sərgidə işləməli və lentə köçürməli idi. Bunun üçün rejissordan daha artıq qüvvə ilə çalışmaq tələb olunurdu: "Rejissor ssenari müəllifi ilə razılığa gəldikdən sonra ssenari üzərində istənilən dəyişikliyi apara bilər. Bu işin ümumi ahənginə də öz müsbət təsirini göstərir".

Filmlə bağlı məlumatları əldə etdiyim zaman belə bir fikirlə də rastlaşdım ki, hər iki filmi görən ustad sənətkarlar üstünlüyü 1916-cı ilin çəkilişinə, o dövrün aktyor ustalığına verib. Əlbəttə ki, Hüseyn Ərəblinski kimi ustad aktyorun iştirak etdiyi film heç də zəif hesab oluna bilməzdi. Bu, onların fikri idi. Hətta filmdə epizodik rolda çəkilən Muxtar Avşarov da bu faktı dəstəkləyirdi.

Rejissor bu barədə bildirmişdi ki, "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi filmlərin əksəriyyəti bir neçə dəfə çəkilib: "Misal olaraq "Arşın mal alan", "O olmasın, bu olsun" kimi filmlərin adlarını çəkmək olar. Zövq baxımından götürdükdə, təbii ki, hər tamaşaçı üstünlüyü bir rejissorun quruluşuna verə bilər. Əgər söhbət iki dəfə çəkilən filmlərdən gedirsə və həmin filmlərin hər ikisi tamaşaçılara yaxşı tanışdırsa, onda hər kəs seçimdə azaddır. Ancaq bir iş də var ki, tamaşaçı hər hansı bir filmin iki quruluşunu görməyə də bilər. 1916-cı ildə çəkilən filmdən uzaqbaşı bir neçə şəkil qala bilər. Heç kim 1916-cı ildə çəkilən filmi görməyib. Tamaşaçılar fərqli düşüncəyə sahib olduqları kimi, onların zövqləri də müxtəlifdir".

Əliabbas Qədirov : Cəlil obrazının daxili aləmini öyrənməyə, onun iç dünyasını açmağa cəhd edirdim.
Filmdə baş qəhrəman, Cəlil ağa obrazının ifaçısı teatr və kino aktyoru, Xalq artisti Əliabbas Qədirovdur.
Cəlil obrazı ikili xarakter daşıdığı üçün Ə.Qədirov çəkiliş vaxtı bütün aktyor gücünü tam səfərbər edib.
Aktyor rejissorun görmək arzusunda olduğu Cəlili yaratmaq və ikili xarakterini açmaq üçün öncə onun yaşadığı həyatı, düşdüyü mühiti və onu dəyişdirən səbəblərin kökünü axtarıb. Və etiraf edirdi ki, bütün bunlar tam aydın olduqdan sonra öncə kasıb Cəlili, sonra isə varlı Cəlil ağanın dəyişkən xarakterini bütün dolğunluğu ilə yaratmağa can atmışdır: "Adətən, sınaq çəkilişlərinə dəvət olunan aktyorların bir-birlərindən xəbərləri olmur. Bu da rejissor işinin gizli tərəfidir. Yaxşı yadımdadır ki, sonuncu sınaqda 2-3 aktyor qalmışdı. Ola bilsin ki, onların hər birinin Cəlil obrazına olan uyğunluqları var idi. Ancaq son məqamda üstünlük mənim ifama verildi". Bədii Şura da Cəlil obrazı üçün Ə.Qədirovun yeganə namizəd olduğunu təsdiqləyərək onun ifaçılığını qəbul edir: "Hələ ssenarini oxuduğum zaman Cəlil obrazının daxili aləmini öyrənməyə, onun iç dünyasını tam açmağa cəhd edirdim. Çünki kasıb bir həyat sürən Cəlildən fərqli olaraq, artıq varlanmış, müəyyən var-dövlətə nail olmuş Cəlil ağa bir-birindən kəskin surətdə fərqlənirdi. Yəni, insanın pul gücünə bu dərəcədə dəyişməsi onun ətrafında olanları da təəccübləndirirdi. Bu təəccübləndirmə isə əsasən mənim, filmin baş qəhrəmanı olan Cəlil və Cəlil ağanın öhdəsinə düşürdü. Mən deyərdim ki, çox az adam tapılar ki, varlandıqdan sonra dəyişməsin. Əslində hər bir insan başa düşməlidir ki, bu dünyanın varı-dövləti elə bu dünyada da qalacaq".
Təxminən 10-a yaxın filmdə əsas rollarda çəkilən Əlabbas Qədirov bunun teatr aktyoru üçün böyük göstərici olduğunu söyləyirdi: "Bəzən deyirlər ki, rolun böyük-kiçiyi yoxdur. Ancaq gərək təklif olunan kiçik rol da xarakter baxımından zəngin olsun ki, nəticədə aktyor onun imkanlarından istifadə edə bilsin. Fimdə lap beş dəqiqəlik də olsa görünən epizod bir rolu o vaxt qəbul edib oynayaram ki, onun filmdə mövqeyi olsun. Elə olub ki, xırda bir rola dəvət ediblər qəbul etməmişəm. Çünki həmin rol epizodik olmasına baxmayaraq bədii cəhətdən çox zəif olub. Bundan fərqli olaraq filmlərdə yaratdığım baş qəhrəman obrazları mənim ürəyimdən xəbər verən obrazlar olub. Cəlil də bu qəbildən olan obrazlardan biridir".
Adətən, sınaq çəkilişlərinə dəvət olunan aktyorlar qrup şəklində də kinosınağından keçirlər. Təbii ki, qrup şəklində olan yoxlama proseslərində də uyğunsuzluq ola bilər. Ə.Qədirov deyirdi ki, hər hansı bir rola tam şəkildə uyğun gələn aktyor qrup şəklində olan çəkilişdə istənilən uğuru qazanmaya da bilərdi.

Tutaq ki, sınaq çəkilişinə qatılan 20 aktyordan axıra 5-i qala bilər. Kino aləmində bu kimi hallarla üzləşmək mümkündür.

Ə.Qədirov "Qızıl uçurum" filminin çəkilişinə qatıldığı zaman bütün çəkiliş prosesi ilə yaxından tanış olub. "hər hansı bir rola dəvət aldığım zaman ilk növbədə öz-özümə düşünürəm ki, mən bu rola düşməyə də bilərəm, yəni sınağında iştirak etdiyim rola təsdiq

olunmaya bilərəm. Ancaq buna baxmayaraq, əgər rol məni tutubsa, onda sınaq çəkilişində özümü elə göstərirəm ki, tam olaraq ürəyimcə olsun. Yəni mən bunu bacarıram. Deməli mənə həvalə olunan rolun öhdəsindən gələ bilərəm. Cəlil obrazının sınaq çəkilişlərində də bu hiss məni bir an da olsun tərk etmədi". Əliabbas müəllimin dediyinə görə, filmin çəkilişi çox maraqlı keçib. "Filmin əsas çəkilişi Bakıda ararılırdı. Natura çəkilişləri, interyer yerləri isə Riqada lentə alınırdı. Gördüyünüz kimi Avrora həyatı köhnə Riqada o dərəcədə ustalıqla lentə alınmışdı ki, nəticədə də tamaşaçını inandırmaq mümkün olmuşdu". Bir məqama da toxunmaq lazımdır ki, Riqa kimi bir şəhərdə Avrora həyatını canlandırmaq üçün filmin yaradıcı heyətindən yüksək məbləğ tələb olunurdu. ""Qızıl uçurum" filmi dövlət tərəfindən maliyyələşdirilmiş və nəticədə də Avrora görüntüləri filmdə canlı şəkildə yarana bilmişdi. O dövrdə sronsor söhbəti olmazdı, yalnız kino ilə alaqəli olan idarələr dövlətlə danışıqlar ararır və sənədləşmə yolu ilə maddi təminat lazım olan yerə köçürülürdü. Əgər danışıq yolu ilə iş həll olunmurdusa o zaman xahiş-minnətlə məsələni həll edirdilər. Ancaq bu kimi baş verən proseslərdən nə aktyorun, nə də rejissorun xəbəri olmazdı". Filmin yaradıcı heyəti çox maraqlı bir çəkiliş prosesinin yaxın iştirakçılarına çevriliblər. Filmdə bir araya gələn maraqlı aktyor qrupu iştirak edib.

Ə.Qədirov deyirdi ki, Hamlet Xanızadə, Məmmədrza Şeyxzamanov, Həmidə Ömərova kimi aktyorların ifası bir-birini tamamlayırdı: "Filmin rejissoru seçimdə daha çox ustad aktyorların ifasına üstünlük vermiş və onların hər birini uyğun olan rollara təsdiq etmişdir. Ümumiyyətlə aktyor seçiminin düzgün aparılması əvvəlcədən filmin yarı faiz uğurundan xəbər verir".

Aktyor söhbət əsnasında çəkildiyi "Sevinc buxtası" və "Qızıl uçurum" filmlərinin müəyyən mənada bir-birinə bənzədiyini də diqqətə çəkmişdi: "Bəlkə də hər iki filmdə söhbətin əsasən neftlə əsaslandırılması bu oxşarlığı daha da qabardır. Hər iki film mövzu etibarilə bir-birinə müəyyən mənada oxşasa da, xarakter baxımından Nazimlə Cəlil bir-birlərinə bənzəmir. Bəlkə də bənzərlik onların kasıb olduqları zamana daha çox təsadüf edir. Çünki hər iki qəhrəman nə qədər ki, kasıbdır bir o qədər saf, bir o qədər daxilən təmizdilər. Əlbəttə ki, Nazim sona qədər bu saflığı qoruyub saxlaya bilir. Ancaq Cəlil elə ki, Cəlil ağa olur, bununla da hər şey dəyişir. Onun ətraf mühitə olan baxışı, dost bildiyi insanlara olan kobud münasibəti bir daha göstərir ki, varlı həyat onu tamam karıxdırıb. Yəni, Cəlil öz baxışı ilə fərqli düşüncəyə malik olduğunu sübut edir. O bir insan kimi taleyini özü seçir, tale yolunu özü müəyyənləşdirir. Bütün bunlar əsərdən də, ssenaridən də mənə yaxşı məlum idi. Fikrət Əliyev bir obrazın daxili aləmini mənə başa salaraq "Cəlil varlanaraq dəyişib və sən də bu dəyişikliyi olduğu kimi, bəlkə də olduğundan da artıq yaratmalısan" deyirdi. Bu film hər birimiz üçün örnək olmalıdır. Rejissor da, elə mən də çalışdıq ki, bu fikirləri tam olaraq təqdim edə bilək. İnsan milyonlara tabe olmamalıdır. Tabe olan insanın aqibəti elə Cəlil kimilərinin aqibəti kimi olacaq. Bir anlıq Cəlilin müflisləşmiş vəziyyətdə vətəninə, elinə, ailəsinə döndüyü kadrları xatırlayaq. Onun görünüşü nə qədər miskindir. Kim belə sonluq istər ki?"

“Qızıl uçurum” filmi ikinci kateqoriyaya, Vilnüsdə keçirilən XIV Ümumittifaq kinofestivalında "Qızıl uçurum Debüt mükafatına layiq görülüb.

“Azərbaycanfilm” kinostudiyasında istehsal olunan 10-dan artıq filmdə, o cümlədən, “İşarəni dənizdən gözləyin”də Sultanov, “Babək” tarixi-bioqrafik filmində Fəzl, “Sevinc buxtası”nda Nazim (filminin 5 nəfər üzvü, həmçinin Əliabbas Qədirov Azərbaycan Dövlət mükafatına layiq görülüb), “Qızıl uçurum”da Cəlil və başqa yaddaqalan rollar yaradan aktyor eyni zamanda 30-dan artıq yerli filmdə personajları ustalıqla səsləndirməklə ekran obrazlarına ifaçılar qədər uğur qazandırıb.

Ə.Qədirovun ifasında C.Cabbarlının “Aydın” tamaşasında İlyas, İ.Səfərlinin “Yol ayrıcında” Fateh, İ.Əfəndiyevin “Hökmdar və qızı” pyesində İbrahim xan, S.Qurbanovun “Əcəb işə düşdük”, N.Xəzrinin “Mənsiz dünya” əsərlərində Muxtarov və Mirzə Şəfi rolları teatr tariximizə yazılıb. Aktyor roldan-rola peşəkarlıq zirvəsinə yüksələr, sənətsevərlərin alqışlarını, rəğbətini qazanardı. Ondan yadigar qalmış xatirələr toplusunda oxuyuruq: “1970-1980-cı illər arasında milli teatrımızın intibah dövrü olub. Ulu öndər Heydər Əliyev bənzərsiz idarəçilik, təşkilatçılıq qabiliyyətinə malik şəxsiyyət kimi, həm də sənətsevər, ədəbiyyatı, incəsənəti gözəl, dərindən bilən ziyalı idi. O, yeni tamaşalarımızın hamısına baxmış, aktyor oyunları haqqında analitik təhlilli münasibətini bildirmişdi. İncə qəlbli, qüdrətli yaddaş sahibi yaradıcı kollektivimizin hər bir üzvünə qayğı göstərərdi. Məhz onun təşəbbüsü, diqqəti sayəsində çoxlarımıza fəxri adalr verilmişdi. Mənə də sevinc qismət olmuşdu. Dövlətimizin başçısından gördüyüm yaxşılığı unutmaram”.

Ə.Qədirov Mehdi Məmmədovdan, İlyas Əfəndiyevdən hiss etdiyi, duyduğu mehribanlığı da unutmurdu. Deyərdi ki, Mehdi müəllim əlimdən tutub məni teatra gətirdi, İlyas müəllim isə sənətimə, səhnəyə sevgimi daha da artırdı.

Əliabbas Qədirov Azərbaycan Dövlət Televiziyasının Ədəbi dram verilişləri baş redaksiyası ilə də daim sıx əlaqə saxlayardı. “Komediyalar aləminə səyahət” verilişinin ilk aparıcısı olmuş və bu verilişi tamaşaçılara sevdirmişdi. Onun vaxtı ilə oynadığı teletamaşaların əksəriyyəti hazırda “Qızıl fond”da saxlanılır. İ.Əfəndiyevin “Atayevlər ailəsi”, (Cahangir), M.F.Axundovun “Hacı Qara” (Heydər bəy), Ə.B.Haqverdiyevin “Bəxtsiz cavan” (Fərhad), M.Bayçıyevin “Duel” (İsgəndər) və başqa teletamaşalar Əliabbas Qədirovun istedadını parlaq şəkildə üzə çıxarmış, onu daha da tanıtmışdı.

Əliabbas Qədirov teatrda, kamera qarşısında uğurlu fəaliyyəti ilə yanaşı, həm də “ ekran ulduzu” olmuşdu. Kinorejissor Eldar Quliyevin “Sevinc buxtası” ikiseriyalı bədii filmdə oynadığı Nazim roluna görə respublika Dövlət mükafatına layiq görülmüşdü. O, eyni zamanda “Azərbaycanfilm” kinostudiyasında “Xatirələr sahilində” (İmran), “Nəğmə dərsi”ndə (ata), “Nə yaxşı ki, Səməd Vurğun var”da (Vaqif), “Bizim evin kişisi”ndə

(Mansur), “Qızıl uçurum”da (Cəlil), “Qocalar”da (Fəriz), “Dənizdən işarə”də (Sultanov) və başqa kinofilmlərə çəkilmişdi.

Ə.Qədirov uzun illər pedaqoji fəaliyyətlə də məşğul olmuş, professor elmi dərəcəsi almışdı. Vaxtı ilə özü yüksək qiymətlərlə başa vurduğu ali təhsil ocağında _Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində sevdiyi sənətdən dərs demişdi.

Artıq o, aramızda yoxdur. Əliabbas Qədirov altmış yaşının tamamından azacıq keçmiş dostlarına, həmişəlik “əlvida” deyib, neçə-neçə istəklərini, arzularını varlığında dondurub haqq dünyasına apardı. Onu tanıyanlar, onunla yoldaşlıq edənlər həmişə bu deyimi onun dilindən tez-tez eşidərdilər: “Teatr mənim qibləgahım, evim, isti ocağım, önündə baş əydiyim müqəddəs məbəddir”. Onun ürəyindən süzülüb səslənən bu sözlər inandırıcıydı, səmimi qarşılanardı. Çünki dediyi həqiqət idi. Ən əsası isə, sevib-seçdiyi sənətə vurğunluğu göz qabağındaydı. Hələ uşaqlıq, yeni-yetməlik çağlarında atası Gülabbas kişi onun oxuduğu orta məktəbləri azından beş dəfə dəyişmişdi ki, teatr binalarından kənar olsun. Amma bu canfəşanlıq əbəs imiş. Ata övladını niyyətindən heç cür çəkdindirə bilməyib.

Gülabbas kişi günlərin birində iş-gücündən ayrılıb on dörd yaşlı oğlunu izləməyə başlayır. Əliabbas isə atasının məqsədindən xəbərsiz min bir həvəslə, xoş ovqatla küçələri, dalanları keçir, o zaman gəncləri maqnit kimi özünə çəkən məşhur Dəmiryolçular klubuna gəlir. Atası onun içəri keçdiyini görüb öz-özünə: “Hə, demək bu sərsəm dərsdən sonra bura gəlirmiş” deyir. O da kluba daxil olur. Bu zaman çoxdan tanıdığı, xatirini əziz tutduğu xalq artisti, oradakı teatr dərnəyinin rəhbəri Ağadadaş Qurbanovla rastlaşır. Narahatlığını, gileyini ona bildirir: Bilirsən ki, mən bu yaşıma qədər hansı zillətlərlə qarşılaşmışam. Bir tikə çörək qazanmaq üçün sübh tezdən evdən çıxıb bir də qaranlıq düşəndə qayıdıram. İstəmirəm ki, balam da mən çəkən əzablara düçar olsun. Arzumdur ki, o, oxusun, təhsil alsın”. Mərhum sənətkar üz-gözünü turşudur. Yarızarafat, yarıciddi danışmağa başalayır. “A kişi, ay Gülabbas, fəxr elə ki, sənin sənətə meyl salan övladın var. O, heç bir naqis hərəkət etmir. Sadəcə olaraq könlündən aktyor olmaq keçir. Rəbbim istəyini həqiqətə çevirsin”.

Ata daha danışmağa, deməyə söz tapmır. Görkəmli aktyordan eşitdikləri, ona təskinlik, rahatlıq verir. Oğlunun gələcək tale-qismətini gözləməkdən özgə çarəsi qalmır. Nəhayət, 1965-ci ildə Əliabbas Qədirov Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olması barədə xoş xəbərlə evlərinə gəlir. Həmin gündən də bu gəncin həyat yolu müəyyənləşir.

Prezident təqaüdçüsü, xalq artisti, Dövlət mükafatı laureatı Əliabbas Qədirovun ən böyük arzusu örnək keyfiyyətləri ilə adı tarixə yazılan Hacı Zeynalabdin Tağıyevin obrazını səhnədə yaratmaq idi. Dünyasını dəyişməzdən az əvvəl aktyor bu arzusuna çatdı. Beləki, yazıçı-dramaturq Əli Əmirlinin “Mesenat” tamaşasında Hacı bəyinin rolunu oynadı. Əsərin quruluşçu rejissoru Bəhram Osmanov bu barədə deyir: Məşhur milyonçu və xeyriyyəçi Hacı

Zeynalabdin Tağıyev obrazına məharətlə, ustalıqla, ürəyinin hərarətiylə səhnə həyatı verən Əliabbas Qədirov oynadığı qəhrəmanın taleyi ilə yaşadı. Tarixi şəxsiyyətin fərəhi də, iztirabları da onun ifasında xatirələrdə qalıb.

Tamaşanın sonunda Əliabbas Qədirov (Hacı) deyirdi: "Yaxşı əməl, xeyirxah niyyət unudulmur. Mən şeytana mərhəmətimlə qalib gəldim..." Oxucular səhnəyə daxil olur. Tamaşadan bir monoloqu səsləndirirlər.

"Yüz ildən çox yaşadım bu dünyada, özümü xoşbəxt, firavan, işli-güclü gördüm. Allahıma tapındım, əl açanları paysız qoymadım. Rəbbim mərhəmətimi artırdıqca ruhum təzələndi, cavanlaşdı, bədənimin əsarətindən çıxdı. Kimin ruhu bədəninin əsiridirsə, bu dünyadan ikiəlli yapışır, ölüm ayağında ruhu şivən qoparır, dünyanın yalan ləzzətinə uyan, şeytana aldanan bədəndən ayrı qala bilmir. Mənim cavan ruhumsa bu köhnəlmiş nimdaş cismimi asanlıqla tərk edir. Dərs almadım, məktəb görmədim, amma bu az ağlımla bir mətləbi anladım: hər kəs öz əməlinin girovudur. Yaxşı əməl, xeyirxah niyyət heç vaxt unudulmur, amma geci-tezi var, nəhayət, şeytanın da bir yorulan vaxtı olur. Mən şeytana mərhəmətimlə qalib gəldim, bu dünyada ən güclü silahım mərhəmətim oldu. Necə ki, müqəddəs Kitabımızda buyurulmuşdur: kim yaxşı əməl sahibi olub özünü Allaha təslim edərsə, o artıq möhkəm bağdan – Qurandan, imandan yapışmış olur. Bütün işlərin axırı Allaha gedib çıxacaqdır. Buyruq Allahındır".

Necəsən, qoca?

- Hə, gəldin? Çox ləngisən də, tanıdım səni...

- Bu fani dünyanın ləzzətindən ayrılmaq çoxmu çətindir?



Yox, əsla yox, çətin deyil... Dediyin bu fani dünyada mən 100 ildən çox yaşadım. Özümü xoşbəxt, firavan, işli-güclü gördüm. Heç kəsə möhtac olmadım. Haqqa tapındım, əl açanları paysız qoymadım. Rəbbim mərhəmətini artırdıqca, ruhum təzələndi, cavanlaşdı, bədənimin əsarətindən çıxdı... Mənim ruhum nimdaş, köhnəlmiş cismimə vida edir... Cismimlə vidalaşır. Görürsən işığı? Necə çəkib aparır ruhumu...

Bəli, O obrazı, obraz da onu tamamlayırdı. Elə bil bu rol məhz onun boyuna biçilmişdi. Bəlkə də son tamaşası, son rolu olduğu üçün belə idi.... Mənalı ömür yaşamış Əliabbas sıravi aktyorluqdan Akademik Milli Dram Teatrının direktoruna qədər yüksəldi, burada bədii rəhbər oldu, ancaq vəzifələr onu heç vaxt dəyişdirmədi. Elə bu xasiyyətinə, rəftarına görə el arasında onun böyük hörməti var idi. Əliabbas dövlətin də qayğısını daim öz üzərində hiss edirdi. 60 illiyi teatrda çox yüksək səviyyədə keçiriləndə o, "Şöhrət" ordeni ilə təltif olundu.

Həyatın ən gözəl çağlarını yaşayan aktyorun taleyində gözlənilməz hadisə baş verir: Neçə onillər bir yerdə mehribanlıqla yaşamış, xoşbəxt həyat sürmüş həyat yoldaşı vəfat edir. Bu hadisə Ə.Qədirovun həyatını büsbütün dəyişir, hətta tamaşaçılarla görüşlərinin birində ömür-gün yoldaşından sonra çox yaşamayacağını bildirir. Elə bil o, ömrünün sonunu hiss edirmiş. Həyat yoldaşının ili çıxmamış, 2006-cı il martın 8-də Ə. Qədirov dünyasını dəyişir. "Biz gedərik bu dünyadan..." misrasını deyən Xalq artisti, Dövlət mükafatı laureatı, "Qızıl Dərviş" mükafatı laureatı Əliabbas Qədirov ölümündən sonra xatirələrdə yaşayır.

Hələ 60 yaşı yenicə tamam olan sənətkarın görəcəyi işlər, oynayacağı rollar qabaqda idi. Çox arzuları, çox planları vardı. Amma leykemiya kimi (ağ qan xərçəngi) amansız xəstəlik onun bütün arzularını ürəyində qoydu. Səhhətində ciddi problemlər yaşamağına baxmayaraq, uşaqlığından könül verdiyi səhnəni heç bir vəchlə tərk etmirdi. Əli Əmirlinin "Mesenat" əsərindəki Hacı Zeynalabdin Tağıyev son rolu idi. Səhhətinə görə yeni əsər götürməmişdi. Bəlkə də ömrün vəfa etməyəcəyini, əgər götürərsə, yarımçıq qoymalı olacağını bilirdi, hiss edirdi.

2006-cı ilin 8 martında Azərbaycan teatrında bir ulduz da axdı. Əliabbas Qədirov bütün arzularını, planlarını, oynamadığı rollarını da götürüb bu dünyanı əbədi tərk etdi. Ondan geriyə isə yaratdığı obrazlar və tamaşaçı qəlbində qoyduğu əbədi iz qaldı...

Səhnə və ekran ustası Əliabbas Qədirov teatr və kino yaradıcılığındakı uğurlarına görə 1978-ci ildə Azərbaycan SSR Dövlət mükafatına, 1 dekabr 1982-ci ildə Azərbaycan SSR Əməkdar artisti adına və 17 may 1989-cu ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb.

Və beləliklə, 2006-cı ilin 8 martında Azərbaycan teatrında daha bir ulduz da axdı. Aktyor bütün arzularını, planlarını, oynamadığı rollarını da götürüb bu dünyanı tərk etdi. Ondan geriyə isə yaratdığı obrazlar və tamaşaçı qəlbində qoyduğu əbədi izlər qaldı... Altmış illik ömrünün 40 ilini teatr-kino işinə həsr etdi. Daha aramızda yoxdu. Təskinliyimiz isə budur: yaxşı insanlar unudulmur, yaddan çıxmırlar.

2006-ci ildə martın 8-də 60 yaşında leykemiya xəstəliyindən (ağ qan xərçəngi) vəfat etmiş aktyor, İkinci Fəxri Xiyabanda dəfn edilib.

Ədəbiyyat siyahısı

Qədirov, Ə. Səhnə və sənət haqqında düşüncələr. – Bakı: Azərnəşr, 1985. – 120 s.

Məmmədov, C. Əliabbas Qədirov. – Bakı: İşıq, 1978. – 95 s.

Cəfərov, A. Azərbaycan teatr tarixi. – Bakı: Elm, 2005. – 432 s.

Rüstəmov, F. Səhnə fədailəri. – Bakı: Gənclik, 1999. – 210 s.

Azərbaycan kino ensiklopediyası. – Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB, 2008. – 816 s.

Xalq artistləri. – Bakı: Şərq-Qərb, 2010. – 256 s.

Dövri mətbuat materialları

Həsənov, R. Səhnənin qüdrətli aktyoru // Azərbaycan. – 1983. – 12 may. – S. 4.

Əliyeva, S. Unudulmaz sənətkar // Mədəniyyət. – 1992. – 18 iyun. – S. 6.

Kərimov, T. Əliabbas Qədirovun sənət yolu // Kaspi. – 2001. – 25 fevral. – S. 7.

Elektron resurslar

Azərbaycan Milli Kitabxanası. Elektron kataloq. – URL: https://www.anl.az (müraciət tarixi: 04.03.2026).

Azərbaycan Dövlət Film Fondu. Rəsmi sayt. – URL: http://www.filmfond.az (müraciət tarixi: 04.03.2026).

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı. Rəsmi sayt. – URL: https://www.admdt.az

https://aymediacompany.az/medeniyyet/24538-milli-kino-tariximizdn-qzl-uurum.html